

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 81 (21.233)

28 aprel 2015-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 27-də Malta Respublikasının Baş naziri Cozef Muskatı qəbul edib.

Azərbaycan ilə Malta arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini vurğulayan dövlətimizin başçısı ölkələrimiz arasında əməkdaşlığın davam etdiriləcəyinə ümidvar olduğunu bildirdi.

Malta Respublikasının Baş naziri Cozef Muskat ölkəsinin Azərbaycan ilə əlaqələrin inkişaf etdirilməsində maraqlı olduğunu dedi. Ölkəmizdə sürətli inkişaf proseslərinin şahidi olduğunu vurğulayan Baş nazir Azərbaycanda gedən bu müsbət proseslərə Avropa tərəfindən obyektiv qiymət verilməsinə tərəfdar olduğunu bildirdi.

Görüşdə Bakıda keçirilən III Qlobal Açıq Cəmiyyətlər Forumunun önəmi qeyd olundu, ölkələrimiz arasında əməkdaşlığın müxtəlif sahələrdə inkişafı, regionda baş verən proseslər və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 27-də Latviyanın sabiq Prezidenti xanım Vayra Vike-Freyberqanı və İsgəndəriyyə Kitabxanasının direktoru İsmail Serageldini qəbul edib.



## Naxçıvanda yaz iməcilikləri davam etdirilir



Zəngin təbiətə malik olan Naxçıvanın yaşıllıq sahələri ilbəil genişləndirilir. Təbiətə qayğı ilə yanaşan, bu işdə öz səyini əsirgəməyən muxtar respublika ictimaiyyəti elliklə iməciliyə çıxır, yaşıllaşdırma tədbirlərində yaxından iştirak edirlər. Çəkilən zəhmətin nəticəsidir ki, artıq muxtar respublikada min hektarlarla yeni meyvə bağları ərsəyə gəlmişdir. Son illər "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksinin yaxınlığında da iməciliklər yolu ilə geniş meyvə bağı salınmışdır.

Aprelin 25-də muxtar respublikanın şəhər, rayon, qəsəbə və kəndlərində növbəti iməciliklər keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Nazirlər Kabinetinin, Naxçıvan Şəhər İcra Hakimiyyətinin, Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin kollektivləri "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksinin yaxınlığındakı meyvə bağında keçirilən iməcilikdə iştirak etmişlər.

Ötən iməciliklər dövründə 3,5 hektar ərazidə müxtəlif meyvə tingləri əkilmişdir. İməcilik iştirakçıları ağaclara aqrotexniki qulluq göstərərək suvarmış, ətrafda səliqə-sahman yaratmışlar.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov iməcilikdə iştirak etmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Ulu öndər Heydər Əliyev və müstəqil Azərbaycan

*Dünən Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyində ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü münasibətilə Naxçıvan Tibb Kollecinin tələbələrinə bu mövzuda açıq dərs keçilib.*

Açıq dərsdə muzeyin direktoru Ramil Orucəliyev bildirib ki, ulu öndər Heydər Əliyevin bütün həyat və fəaliyyəti Azərbaycanla bağlı olub. Ölkəmizə rəhbərliyinin hər iki dövründə dahi şəxsiyyətin Vətənimiz qarşısındakı misilsiz xidmətləri Azərbaycanın müstəqilliyini təmin etməklə bərabər, həm də onun müasir inkişafını şərtləndirib.

Qeyd olunub ki, ötən əsrin sonlarında Sovetlər Birliyi iflasa uğradıqdan sonra respublikaya naşı adamların rəhbərlik etməsi ölkəmizdə özbaşınalıq yaradıb, daxili sabitlik pozulub, müstəqilliyimizə böyük təhlükə yaranıb. Həmin dövr Naxçıvan Muxtar Respublikasında da ictimai-siyasi hadisələrin ən mürəkkəb dövrü kimi xarakterizə olunur. Sovet imperiyası rəhbərliyinin Azərbaycanın maraqlarına zidd siyasəti, ermənilərin Naxçıvana ərazi iddiaları və sərhədlərdə hərbi toqquşmalar yaratması muxtar respublikanın həyatına ciddi təsir göstərib. Bu dövrdə bütün Azərbaycanda, həmçinin Naxçıvanda xalqın azadlıq uğrunda apardığı mübarizəni qələbə ilə başa çatdırmaq üçün milli rəhbər lazım idi. Belə bir rəhbər xalqımızın müdrik oğlu, görkəmli dövlət xadimi Heydər Əliyev idi. Ulu öndər Heydər Əliyev 1990-cı il iyulun 20-də Moskvadan Bakıya, iyulun 22-də isə doğulduğu Naxçıvan torpağına gəlib. Bu dövrdən etibarən ulu öndərin siyasi fəaliyyətinin Naxçıvan dövrü başlayıb.

Vurğulanıb ki, 1990-cı il noyabr ayının 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ilk sessiyası ümummilli lider Heydər Əliyevin sədrliyi ilə keçirilib. Həmin sessiyada Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adının dəyişdirilərək Naxçıvan Muxtar Respublikası adlandırılması, Azərbaycan Xalq Cümhuriyyətinin milli istiqlal rəmzi olan üçrəngli dövlət bayrağının Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul edilməsi haqqında qərarlar qəbul olunub. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Azərbaycan SSR Ali Sovetinin qarşısında həmin bayrağın bütünlükdə Azərbaycanın rəsmi dövlət rəmzi kimi tanınması haqqında vəsatət qaldırıb. Ümummilli liderin Naxçıvanda yaşayıb fəaliyyət göstərdiyi dövrdə qonşu İran və Türkiyə respublikaları ilə müxtəlif sahələrdə əməkdaşlıq müqavilələrinin imzalanması və bu əməkdaşlığın real müstəviyə çıxarılaraq inkişaf etdirilməsi muxtar respublikanın mədəni, iqtisadi, eləcə də siyasi həyatında mühüm rol oynayıb.

Qeyd olunub ki, 1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən ölkəyə rəhbərlik etməyə başlayan ulu öndər Heydər Əliyev yürütdüyü müdrik siyasət nəticəsində ölkədə daxili sabitliyin bərpa edilməsinə nail olub, torpaqlarımızın işğalının qarşısını alıb. Dahi şəxsiyyətin yorulmaz fəaliyyəti nəticəsində çox qısa zamanda Azərbaycan öz iqtisadi, siyasi, mədəni gücü ilə dünya dövlətləri sırasında öz yerini aldı. Təbii ki, bütün bunlar heç də asan olmadı. Xalq öz liderinə, dahi şəxsiyyət isə öz xalqına arxalanaraq bütün bunları həyata keçirdi. Buna görə də müstəqil Azərbaycan dövləti var olduqca xalqımızın xoşbəxt gələcəyini təmin edən ümummilli lider Heydər Əliyevin adı da qəlbimizdə yaşayacaqdır.

Sonra tələbələr ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən eksponatlarla tanış olublar.

## Əmək yarmarkalarında 332 nəfər işlə təmin olunub

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq olunmuş "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın uğurlu icrası muxtar respublikada əmək bazarının tənzimlənməsi və əhalinin səmərəli məşğulluğunun təmin edilməsində mühüm əhəmiyyət kəsb edir. Dövlət proqramından irəli gələn vəzifələrin həyata keçirilməsi istiqamətində əmək yarmarkalarının təşkili aktiv məşğulluq tədbirlərindən sayılır.

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Dövlət Məşğulluq Xidməti tərəfindən həyata keçirilən bu tədbirlərdə məşğulluq xidməti orqanları tərəfindən vətəndaşlara münasib iş yerlərinin axtarılmasında, habelə işəgötürənlərə lazımi kadrların seçilməsində köməklik göstərilir, işəgötürənlərlə işaxtaran vətəndaşların bilavasitə qarşılıqlı ünsiyyəti təşkil edilir.

Dövlət Məşğulluq Xidmətindən aldığımız məlumata görə, 2015-ci ilin aprel ayında muxtar respublikada keçirilmiş əmək yarmarkalarına 177 müəssisədən 1702 boş iş yeri çıxarılıb, 332 nəfər işlə təmin olunub. İşlə təmin olunanlardan 121 nəfərini gənclər təşkil edib. Kvota üzrə işlə təmin olunanların sayı isə 10 nəfər olub.

**Xəbərlər şöbəsi**

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında" 2014-cü il 19 dekabr tarixli Sərəncamına əsasən təşkil olunan "Muzey günləri" mühüm əhəmiyyətə malikdir. Artıq Naxçıvan şəhərində, eləcə də rayon mərkəzlərində fəaliyyət göstərən muzeylərə axın güclənib.*

## Naxçıvanda "Muzey günləri" keçirilir

Aprelin 25-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının kollektivi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin əməkdaşları Cəlil Məmmədquluzadə adına Naxçıvan Muxtar Respublika Ədəbiyyat Muzeyində olmuşlar.

Bildirilmişdir ki, 48 il bundan əvvəl fəaliyyətə başlayan muzey görkəmli ədiblərimizin həyat və yaradıcılığının öyrənilməsi, elmi cəhətdən tədqiqi və təbliği sahəsində fəaliyyət göstərir. Muzeyin ekspozisiyasında çoxəsrlik Azərbaycan ədəbiyyatı tarixi ilə yaxından tanış olmaq mümkündür. Burada saxlanılan və nümayiş etdirilən qiymətli əlyazmalar, təbqiq və təsviri sənət nümunələri, kitablar, qəzet və jurnallar, xatirə əşyaları, Azərbaycan ədəbiyyatının yaradıcıları haqqında məlumatlar, onların əsərləri bu baxımdan etibarlı mənbədir. Muzeyə gələnlər Azərbaycan ədəbiyyatının klassik və müasir nümayəndələrinin həyat və yaradıcılığını əks etdirən guşələrlə zəngin olan ekspozisiyada naxçıvanlı şair və yazıçıların yaradıcılıqları ilə də tanış ola bilirlər.

Həmin gün Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti Aparatının, Ali Məhkəmənin, Naxçıvan Şəhər Məhkəməsinin, ixtisaslaşdırılmış məhkəmələrin də kollektivləri Ədəbiyyat Muzeyində olmuşlar.

İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) Aparatının, Naxçıvan Muxtar Respublikası Maliyyə və Vergilər nazirliklərinin kollektivləri Heydər Əliyev Muzeyində, Fövqəladə Hallar Nazirliyinin, Ədliyyə Nazirliyinin və Dövlət Gömrük Komitəsinin əməkdaşları Dövlət Bayrağı Muzeyində, Daxili İşlər Nazirliyinin, Milli Təhlükəsizlik Nazirliyinin, Naxçıvan Muxtar Respublikası Prokurorluğunun, Hərbi Prokurorluğun kollektivləri Dövlət Tarix Muzeyində, Əmək və Əhalinin Sosial Müdafiəsi, Ekologiya və Təbii Sərvətlər nazirliklərinin, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin kollektivləri "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksində, Təhsil, Mədəniyyət və Turizm, Gənclər və İdman nazirliklərinin kollektivləri Dövlət Xalça Muzeyində, Kənd Təsərrüfatı, Rabitə və Yeni Texnologiyalar, Səhiyyə nazirliklərinin kollektivləri "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində, İqtisadiyyat və Sənaye, Nəqliyyat nazirliklərinin əməkdaşları isə Cəmşid Naxçıvanskinin ev-muzeyində olmuşlar.

Muzey bələdçiləri muzeylərin fəaliyyəti barədə ətraflı məlumat vermiş, kollektivləri burada mühafizə olunan eksponatlarla tanış etmişlər.

**"Şərq qapısı"**

# Qayğıkeş həkim, müdrik alim



***Zərifə Əliyevanın adı Azərbaycanda böyük fəxrlə, sonsuz qürur hissi ilə səslənir. Ölkəmizdə ana adının ucalığı, ömür-gün yoldaşının sədaqəti, nurlu həkimliyin müqəddəsliyi onun adı ilə əbədiləşmişdir. Zərifə xanım tibb elmimizin zirvəsində parlayan əbədiyyət Günəşidir.***

Hər bir insan, ilk növbədə, Vətənə, torpağa məhəbbəti, təmiz mənəviyyatı, xalqa sədaqətli xidməti ilə yaddaşlarda qalır. Belələrinin yaşadıqları ömür kitabını vərəqlədikcə bitib-tükənmir, əməlləri, xeyirxah işləri daim xatırlanır. Tarixdə bu cür insanların həyat yolu gələcək nəsillərə örnək, nümunə olur. Görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyeva da məhz belə bir ömür yaşamışdır. Zərifə xanımın fitri istedada malik novator alim, pak və nadir bir insan kimi yaşadığı ömrü, keçdiyi şərəfli həyat yolu hər bir Azərbaycan vətəndaşı, hər bir alim və həkim üçün həyat və mənəviyyat dərsi, kamillik və müdriklik məktəbidir. Onun zəngin elmi irsi, oftalmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, qazandığı nailiyyətlər, yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin parlaq səhifəsidir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev görkəmli akademikin Azərbaycan tibb elminin inkişafındakı xidmətləri barədə demişdir: ***“Akademik Zərifə xanım Əliyeva respublikamızda tibb elminin inkişafına mühüm töhfələr verərək oftalmologiyanın aktual problemlərinə dair sanballı tədqiqatları ilə böyük şöhrət qazanmışdır. Onun elmi-pedaqoji və ictimai fəaliyyəti həkimlərin yeni nəslinin yetişməsinə və Azərbaycanda oftalmologiya elminin inkişafına güclü təsir göstərmişdir”.***

Müdriklərin fikrinə görə, insanın yetişməsində başlıca amillərdən biri də onun formalaşdığı mühitdir. 1923-cü il aprelin 28-də qədim Naxçıvan diyarının Şahtaxtı kəndində görkəmli dövlət və elm xadimi, tibb elmləri doktoru Əziz Əliyevin ailəsində dünyaya göz açan Zərifə xanımın cəmiyyət üçün layiqli insan kimi yetişməsində boya-başa çatdığı ziyalı mühitinin böyük təsiri olmuşdur. Zəriflik, humanistlik, Vətənə qəlbən bağlılıq Zərifə xanımın nəsil şəcərəsindən, yaşadığı ailə mühitindən irəli gəlirdi. Zəngin və davamlı maarifçi ənənələri olan ziyalı ailəsinin özünəməxsus tərbiyə üsulları onu hələ uşaq yaşlarından, məktəb illərindən etibarən elmə, işıqlı ideallara doğru istiqamətləndirmişdir.

İstedad, zəhmət və ağılla qazanılan uğur illər keçdikcə zənginləşir və ondan bütün cəmiyyət yararlanır. Zərifə xanım da həyat uğurlarına məhz bu keyfiyyətləri sayəsində nail olmuşdu. O, 1942-ci ildə Bakıda orta məktəbi əla qiymətlərlə bitirmiş və elə həmin il Azərbaycan Dövlət Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsinə daxil olmuşdur. Ali təhsil illərində özünəməxsus fitri istedadı, dərin zəkası, geniş dünyagörüşü, iti məntiqi təfəkkürü, təvazökarlığı, sadəliyi və insanpərvərliyi ilə tələbələr arasında dərin hörmət qazanmış, professor-müəllim heyətinin diqqətini cəlb etmişdir. Fundamental tibbi biliklərə dərindən yiyələnən Zərifə xanım Əliyevanın qəlbində insanların gözlərinə nur bəxş etmək amalı baş qaldırmışdı və o, öz gələcək fəaliyyətini tibbin oftalmologiya sahəsinə həsr etməyi qarşısına məqsəd qoymuşdur. Görünür, son dərəcə zəriflik və incəlik, həssaslıq və nəciblik tələb edən göz həkimliyi Zərifə xanımın təbiətindəki nadir xüsusiyyətlərə daha yaxın idi.

O, ötən əsrin 50-ci illərində öz xeyirxah sənəti ilə əsl vətəndaş mövqeyində dayanaraq xalqımızın bəlasına çevrilmiş traxoma xəstəliyinin qarşısını almaq üçün ciddi və məqsədyönlü müalicə-profilaktika tədbirlərinin həyata keçirilməsi istiqamətində mübarizəyə başlamışdır. İnsanları korluq əzabından qurtarmaq zərurətindən doğan bu şəfqətli tədbirin həyata keçirilməsi ağır zəhmət və uzunmüddətli vaxt tələb edirdi. Zərifə xanım Əliyeva 1959-cu ildə “Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomisinlə müalicəsi” mövzusunda namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə etmiş və tibb elmləri namizədi alimlik dərəcəsi almışdır. Onun qələmə aldığı “Terapevtik oftalmologiya”, “Oftalmologiyanın aktual məsələləri”, “İridodiaqnostikanın əsasları” kitabları bu gün də oftalmoloqların ən çox müraciət etdikləri, oxuyub faydalandıqları əsərlərdəndir.

Zərifə xanım Əliyeva ciddi elmi-tədqiqat işləri, mürəkkəb cərrahiyyə əməliyyatları ilə yanaşı, elmi-pedaqoji fəaliyyətini də uğurla davam etdirmişdir. Görkəmli alim 1967-ci ildə Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Göz xəstəlikləri kafedrasına dəvət olunmuş, həmin kafedranın müdiri vəzifəsində çalışan Zərifə xanım bu institutda dosentlikdən elmin ən yüksək zirvəsi olan akademikliyə qədər yüksəlmişdir. 1977-ci ildə Bakıda Zərifə Əliyevanın təşəbbüsü ilə Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti İdarə Heyətinin plenumu keçirilmişdir. Bu plenum alimin daha bir keyfiyyətini qabarıq şəkildə üzə çıxarmış, Zərifə xanımın təşkilatçılıq bacarığı nəticəsində tədbir gözləniləndiyindən də yüksək səviyyədə keçirilmişdir. Zərifə xanım oftalmologiya elminin inkişafı yolunda əldə etdiyi nailiyyətlərə, görmə orqanının peşə patologiyası sahəsində apardığı uğurlu elmi-tədqiqat işlərinə görə 1981-ci ildə SSRİ Tibb Elmləri Akademiyasının akademik M.Averbax adına mükafatına layiq görülmüşdür.

Akademik Zərifə Əliyeva 160-dan çox elmi əsərin, 10 monoqrafiyanın, 12 səmərələşdirici təklifin, dərs vəsaitlərinin müəllifidir. Görkəmli alim gənc nəslin təlim-tərbiyəsində, yüksək səviyyəli həkim-oftalmoloqların, professional elmi kadrların yetişdirilməsində də böyük xidmətlər göstərmiş, onlarla elmlər doktorunun və elmlər namizədinin rəhbəri olmuş və böyük bir elmi məktəb yaratmışdır. Akademik oftalmologiya elmində əldə etdiyi nailiyyətlərə, xalqımızın sağlamlığı keşiyində dayanan çoxsaylı həkim-oftalmoloqların yetişdirilməsində əvəzsiz xidmətlərə görə “Azərbaycanın Əməkdar elm xadimi” fəxri adına layiq görülmüşdür. Alimin zəngin elmi irsi, oftalmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, qazandığı nailiyyətlər, yaratdığı fundamental əsərlər bu gün də Azərbaycan tibb elminin parlaq səhifələridir.

Zərifə xanım dəfələrlə Naxçıvanda olmuş, buradakı həkimlərlə görüşmüş, onlarla həmişə sıx əlaqə saxlamışdır. Müasirləri onun Naxçıvandan olan tanışlarına, peşə yoldaşlarına çox isti münasibət bəslədiyini, onlara diqqətlə yanaşdığını, həmişə qayğı göstərdiyini ehtiramla xatırlayırlar. Zərifə xanım müxtəlif vaxtlarda muxtar respublikanın, demək olar ki, əksər rayonlarında xəstələri müayinə etmiş, qiymətli məsləhətlər vermiş, müalicəyə ehtiyacı olan insanlara köməklik göstərmişdir. Alimin əldə etdiyi elmi və praktik nailiyyətlər bu gün muxtar respublikanın səhiyyə sistemində tətbiq olunur. Belə ki, ilk dəfə olaraq traxoma xəstəliyinin müxtəlif mərhələlərdə sintomisin emulsiyası ilə müalicə metodu, gözün herpetik xəstəlikləri, virus konyuktivitləri, gözyaşı yolları xəstəlikləri, şəkər retinopatiyası, qlaukoma və başqa xəstəliklərdə akademik Zərifə Əliyevanın təklif etdiyi iridodiaqnostika müayinəsi, yeni terapevtik və cərrahi müalicə üsulları geniş tətbiq edilərək yüzlərlə insanın gözünə nur qaytarmışdır.

Zərifə Əliyevanın 1983-cü ildə çapdan çıxmış “Həkimlərin mənəvi tərbiyəsi, deontologiya, tibbi etika və əxlaq məsələləri” əsəri hər bir tibb işçisi üçün stolüstü kitabdır. Həkim-xəstə münasibətinə xüsusi diqqət yetirən Zərifə xanım məqalələrinin birində yazırdı: ***“Əsl həkim yalnız o şəxsdir ki, xəstənin əzablarını bilir və onun üçün sağalıb evinə qayıtmış insanın təbəssümü ən yüksək mükafatdır. Vicdan əsas hakimimizdir. Ən çətin məqamda və ən xoş saatımızda o, bizimlə üzbəüz dayanıb soruşacaq: Sənin ağ xalat geyinməyə haqqın varmı?”***

Görkəmli alimin bir sıra elmi işləri görmə orqanında bədxassəli şişlərin diaqnostikasına və müalicəsinə həsr olunmuşdur. Zərifə Əliyevanın daktriologiyadan bəhs edən “Göz sulanmasının fiziologiyası”, “Göz sulanmasının müasir cərrahiyyə üsulları ilə müalicəsi” monoqrafiyaları təkcə oftalmoloqların yox, həm də fizioloqların diqqətini cəlb etmişdir. Zərifə xanım fundamental “Terapevtik oftalmologiya” kitabının müəlliflərindən biridir. Bu kitab indi də hər bir oftalmoloq üçün stolüstü kitabdır. Alimin zəngin pedaqoji, elmi və əməli təcrübəsi “Oftalmologiyanın aktual məsələləri” monoqrafiyasında öz əksini tapmışdır. Həmçinin Zərifə Əliyevanın Azərbaycan tibb elmində xüsusi əhəmiyyət kəsb edən qohumların nikahının tibbi, bioloji-fizioloji çətinliklərinə dair nəzəriyyəsi yüzlərlə yeni qurulmuş ailələrin taleyində mühüm rol oynamışdır. Aparılan geniş maarifləndirmə tədbirləri, inandırıcı tövsiyələr və konkret faktlar respublikada qohumluq əsasında qurulmuş ailələrin sayının azalmasına, bu yolla genetik xarakterli irsi xəstəliklərin əsasən aradan qaldırılmasına səbəb olmuşdur.

Zərifə xanım ulu öndər Heydər Əliyevin təkcə həyat yoldaşı yox, həm də silahdaşı idi. Ümummilli liderimiz kimi böyük şəxsiyyətin məhəbbətinə layiq olmaq təkcə böyük xoşbəxtlik yox, həm də böyük məsuliyyət idi. Yalnız seçilmiş insan belə məhəbbətə layiq ola bilərdi. Ümummilli liderimiz bu barədə deyirdi: ***“Ömür yoldaşım kimi həyatımda keçdiyim yolda mənə həmişə dayaq, arxa olduğuna görə, ailə həyatımı çox xoşbəxt etdiyinə görə Zərifə xanım mənim üçün çox əzizdir. O, çox istedadlı, çox sadə insan idi. Onun xatirəsi bizim qəlbimizdə, bizim ailənin bütün gələcək davamçılarının qəlbində əbədi yaşayacaqdır”.***

Görkəmli alimin Vətənə, doğma xalqına olan məhəbbəti, bu torpaqda yaşamaqdan duyduğu qürur hissi Azərbaycanı daim gözəlləşən, yüksələn görmək arzuları ilə vəhdət təşkil edirdi. Bu gün ölkə Prezidenti cənab İlham Əliyev ulu öndərin yolunu davam etdirməklə həm də görkəmli alimin arzularını reallığa çevirir. Artıq Azərbaycan inkişaf edən qüdrətli dövlətdir.

Zərifə xanımın işıqlı obrazı yüksək vətənpərvərlik və humanizm rəmzi kimi həmişə bizimlə olacaq, onun parlaq xatirəsi daim anılacaq, qədirbilən xalqımızın qəlbində əbədi yaşayacaqdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***“Onun xatirəsini milyonlarla insanın yaddaşında böyük ehtiramla yaşadan cəhətlərdən biri də bu böyük şəxsiyyətə məxsus insani məhəbbət və şəfqətdir. Zərifə xanımın həyatda əsas amalı həkimlərimizi bilikli və peşəkar, millətimizi sağlam və gözü nurlu görmək idi. Onun zəngin elmi irsi, tədqiqatları, qazandığı nailiyyətləri, fundamental əsərləri Azərbaycan tibb elminin parlaq səhifəsini təşkil edir. Xalqımızın yetişdirib dünya tibb elminə bəxş etdiyi görkəmli alimin və istedadlı həkimin şəxsiyyəti bu gün də – ölkəmizin müstəqillik şəraitində yaşadığı dövrdə də hər bir alimin və Hippokrat andını içmiş hər bir həkimin cəmiyyətdə oynamalı olduğu rola parlaq nümunədir”.***

**“Şərq qapısı”**

# Akademik Zərifə xanım Əliyevanın anadan olmasının 92-ci ildönümünə həsr olunmuş tədbir keçirilib

*Naxçıvan Qızlar Liseyində akademik Zərifə xanım Əliyevanın anadan olmasının 92-ci ildönümünə həsr olunmuş tədbir keçirilib.*

Tədbiri giriş sözü ilə liseyin direktoru, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Aidə Allahverdiyeva açaraq görkəmli alimin mənalı ömür yolundan və elmi fəaliyyətindən danışıb. Qeyd olunub ki, dünya şöhrətli alim və ictimai xadim, akademik Zərifə xanım Əliyevanın adı və elmi-ictimai fəaliyyəti zəriflik və işıqla bağlıdır. Bu böyük elm xadiminin keçdiyi ömür yolu, yaşadığı şərəfli həyat, mənalı həkimlik fəaliyyəti, yazdığı qiymətli əsərlər yüksək insanlıq meyarlarına və müqəddəs həkimlik andına parlaq və ibrətamiz bir örnəkdir. Azərbaycan oftalmologiyasını dünya səviyyəsində tanıdan akademik Zərifə xanım Əliyevanın tibb elmində öz dəst-xətti olan novator bir alim olduğunu qeyd edən Aidə Allahverdiyeva bildirib ki, akademik Zərifə Əliyevanın alim kimi qazandığı böyük uğurlar Azərbaycan tibb elminin tarixində ayrıca bir mərhələ təşkil edir. Göz həkimi olan Zərifə xanım bütün ömrünü insanlara işıq bağışlamağa həsr etmişdir. Bu ömrün mənası zülmət və qaranlıqla mübarizə aparmaqdan ibarət olmuş, işığını itirmiş gözlərə nur vermək istəyi onun parlaq obrazını qeyri-adi bir nəcibliyə qovuşdurmuşdur. İnsanları zülmət pəncəsindən qoparıb nura qovuşduran bu böyük şəxsiyyətin ömür yolu müasir Azərbaycan gəncliyi üçün də əvəzsiz bir örnəkdir. Akademik Zərifə xanım Əliyeva yazıb-yaratdığı dəyərli əsərləri, qoyub getdiyi elmi nailiyyətləri ilə birgə ideal bir həkim, alim və insan kimi xatirələrdə yaşayır və daim yaşayacaqdır.

Azərbaycan oftalmologiya elmini bütün dünyada tanıdan, yüksək intellekt sahibi, dünya şöhrətli alim Zərifə Əliyevanın elmdə açdığı yol ildən-ilə inkişaf edir, geniş vüsət alır, onun yazıb-yaratdığı monumental əsərləri, qoyub getdiyi elmi nailiyyətləri, pedaqoqluq səriştəsi, yüksək səviyyəli elmi irsi daim araşdırılır, öyrənilir, neçə-neçə tədqiqat əsərinin mövzusuna çevrilir. Zərifə xanım insanları çox sevirdi. Peşəsində qazandığı uğurlar da bu xüsusiyyəti ilə bağlı idi. Bütün fəaliyyətində yüksək vətənpərvərlik hissi özünü büruzə verir, bu xüsusiyyət ətrafındakılara münasibətində də aydın görünürdü. Mənsub olduğu əsl azərbaycanlı ailəsinin bütün mənəvi dəyərlərini özündə cəmləşdirən, gözlərə işıq, qəlblərə nur bəxş edən Zərifə xanım Əliyevanın işıqlı və nurlu əməlləri bu gün də yaşayır və xatırlanır. Ölkəmizdə onlarla məktəb, xəstəxana, poliklinika, bağ və parklar, küçələr akademik Zərifə Əliyevanın adını daşıyır. Onun xatirəsinə ucaldılan büst və abidələr xalqımız tərəfindən görkəmli alimə və əsl İnsana olan ehtiramın və məhəbbətin tükənməz təzahürüdür.

Sonra liseyin müəllimlərindən Səkinə Allahverdiyeva, Rəxşəndə Rüstəmova və başqaları çıxış etmişlər. Çıxışlarda bildirilmişdir ki, Azərbaycan tibb elminin korifeylərindən olan akademik Zərifə Əliyeva qayğıkeş insan, böyük alim, əsl ziyalı kimi bütün elm və tibb ictimaiyyətinin yaddaşına əbədi həkk olunmuşdur. Akademik Zərifə xanım Əliyeva elm, təhsil, səhiyyə, eləcə də ictimai-siyasi sahələrdəki misilsiz xidmətlərinə görə xalqımızın, gözlərinə nur verdiyi insanların yaddaşında şəfqətli həkim, səmimi və sədaqətli vətəndaş, eləcə də məğrur Azərbaycan qadını kimi daim yaşayacaqdır. Həyat fəlsəfəsi və mənəvi dünyası kifayət qədər zəngin olan, oftalmologiya elminin inkişafına böyük töhfələr verən akademik Zərifə xanım Əliyevanın xatirəsi bu gün də insanların qəlbində yaşayır, əziz tutulur. Hamının mehriban, istiqanlı, bilik və bacarığını xalqına xidmətə yönəldən böyük bir insan, ətrafına nur saçan ziyalı kimi tanıdığı akademik Zərifə xanım Əliyeva bu gün də yaddaşlarda ilahi duyğulara malik qadınlıq meyarı kimi yaşayır. O, baharda doğuldu, baharda da dünyasını dəyişdi. Adındakı zərifliyə uyğun olaraq, kövrək, duyğulu, əbədi bahar nağılına bənzər bir ömür yaşadı. O nağıl bu gün də insanlara sonsuz işıqdan, gözəllikdən, səadətdən danışır.

*Tədbirin sonunda liseyin şagirdləri Zərifə xanım Əliyevaya həsr olunan şeirləri bədii qiraət etmiş, mahnılar səsləndirmiş, slayd nümayiş etdirilmişdir.*

**Xəbərlər şöbəsi**

28 aprel Ümumdünya Əməyin Mühafizəsi Günüdür

# Əməyin mühafizəsi muxtar respublikada həyata keçirilən sosial siyasətin tərkib hissəsidir

***Dünyada hər il istehsalatda baş verən bədbəxt hadisələr nəticəsində milyonlarla insan xəsarət alır. Bütün bunlar isə əməyin mühafizəsi məsələsini aktuallaşdırır. Cəmiyyətin diqqətini işçilərin sağlam və təhlükəsiz əmək şəraiti ilə təmin olunmasına yönəltmək məqsədilə 2001-ci ildə Beynəlxalq Əmək Təşkilatının qərarı ilə aprelin 28-i "Ümumdünya Əməyin Mühafizəsi Günü" kimi təsis olunmuşdur.***

Ölkəmizdə əməyin mühafizəsi və təhlükəsiz iş yerlərinin yaradılması daim diqqət mərkəzindədir. İnsanların həyatı, sağlamlığı və əmlakı üçün təhlükə yaradan problemlərin qarşısının vaxtında alınması və əməyin mühafizəsi mədəniyyətinin formalaşdırılması dövlətimizin həyata keçirdiyi sosial siyasətin əsas istiqamətlərindəndir. Ümummilli lider Heydər Əliyevin Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışından sonra əmək qanunvericiliyi sahəsində islahatlar aparılmış, əmək münasibətləri və əməyin mühafizəsi sahəsində beynəlxalq prinsiplərə uyğun normativ-hüquqi aktlar qəbul edilmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin işçilərin hüquqlarının müdafiəsinə davamlı diqqət və qayğısı bu sahədə aparılan siyasətin daha da genişlənməsinə şərait yaratmışdır.

Əməyin mühafizəsi işçilərin təhlükəsiz və sağlam şəraitdə işləmək hüququnu təmin etmək məqsədilə nəzərdə tutulan texniki təhlükəsizlik, sanitariya, gigiyena, müalicə-profilaktika tədbirləri, normalar və standartlar sistemidir. Sağlam və təhlükəsiz əmək şəraitini yaratmaq işəgötürənlərin vəzifəsi olsa da, əmək müqaviləsi ilə işləyən hər bir işçinin vəzifəsi də əməyin mühafizəsi üzrə müvafiq normativ-hüquqi aktlarda nəzərdə tutulan tələbləri öyrənmək və onlara əməl etməkdir. Ölkəmizdə əməyin mühafizəsi ilə bağlı qanunvericiliyin əsasını Azərbaycan Respublikası Konstitusiyasının 35-ci maddəsi, "Hər kəsin təhlükəsiz və sağlam şəraitdə işləmək hüququ vardır" müddəası təşkil edir. Ölkəmizdə əmək münasibətlərini tənzimləyən əsas qanunvericilik aktı 1999-cu ildə qəbul edilən Azərbaycan Respublikasının Əmək Məcəlləsidir. Məcəllədə əmək münasibətlərində olan işçilərin və işəgötürənlərin hüquq və vəzifələri, qarşılıqlı məsuliyyətləri, habelə əməyin mühafizəsini tənzimləyən norma, qayda və prinsiplər öz əksini tapmışdır.

Son illər Naxçıvan Muxtar Respublikasında tikinti-quraşdırma işlərinin həcminin davamlı artması, yeni istehsal və xidmət sahələrinin yaradılması, iş proseslərinin daha məhsuldar və intensiv xarakter alması, öz növbəsində, iqtisadiyyatın müxtəlif sahələrində çalışan işçilər üçün təhlükəsiz əmək şəraitinin yaradılmasına və əməyin mühafizəsi xidmətinə də diqqətin artmasını şərtləndirmişdir. Buna görə də muxtar respublikada bu sahəyə xüsusi diqqət yetirilir, müvafiq profilaktik tədbirlər görülür. 2011-ci il iyunun 8-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində istehsalatda baş verən bədbəxt hadisələr və onların aradan qaldırılması sahəsində görülən tədbirlər, 2012-ci il fevralın 27-də tikinti sektorunda əməyin təşkili və təhlükəsizlik qaydalarına riayət olunması, 2014-cü il fevralın 21-də tikintidə işlərin keyfiyyətlə aparılması və təhlükəsizlik tədbirləri ilə bağlı keçirilən müşavirələrdə verilən tapşırıqların icrası işçi hüquqlarının təminatı, o cümlədən əməyin mühafizəsi standartlarının tətbiqi sahəsində müsbət göstəricilərin artmasına səbəb olmuşdur. Həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası təhlükəsiz və sağlam iş yerlərinin yaradılması istiqamətində həyata keçirilən tədbirlərin davamı kimi xüsusi əhəmiyyət daşıyır.

Bu il fevralın 9-da Naxçıvan Muxtar Respublikasında 2014-cü ilin yekunları və qarşıda duran vəzifələrə dair keçirilən müşavirədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov aid orqanlara bütün işçilərlə işəgötürənlər arasında əmək müqavilələrinin bağlanması, işçilər üçün normal iş və istirahət şəraitinin yaradılması, xüsusilə istehsal müəssisələrində əməyin təşkili və təhlükəsizlik qaydalarına əməl olunması, tikinti sektorunda bədbəxt hadisələrin qarşısının alınması üçün işçilərin fərdi və xüsusi mühafizə vasitələri ilə təchiz olunması, onların texniki təhlükəsizlik qaydaları barədə təlimatlandırılmasına diqqət və nəzarətin artırılması ilə bağlı konkret tapşırıqlar vermişdir. Ötən dövrdə istehsal, emal və tikinti sahələrində fəaliyyət göstərən müəssisələrdə bu istiqamətdə bir sıra tədbirlər həyata keçirilmişdir. Bu dövr ərzində muxtar respublika üzrə 20 obyektə baxış keçirilmiş, 15 halda istehsal sahəsində çalışan işçilər fərdi mühafizə vasitələri ilə təmin edilmiş, fərdi mühafizə vasitəsi olmayan 9 işçi müvəqqəti olaraq tikinti sahəsindən uzaqlaşdırılmışdır. Bu müddət ərzində 66 müəssisədə bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə-əmək qabiliyyətinin itirilməsi hallarından işçilərlə icbari sığorta müqaviləsi ilə bağlı maarifləndirici söhbətlər aparılmış və müqavilələr bağlanmışdır. Əməyin mühafizəsi mütəxəssislərinin peşəkarlığını artırmaq məqsədilə Naxçıvan Regional Peşə Tədris Mərkəzində "Texniki təhlükəsizlik və əməyin mühafizəsi normaları, qaydaları və standartlarına əməl olunması" mövzusunda maarifləndirici kurslar təşkil olunmuşdur. Həmçinin istehsalatda yüngül xəsarətalma ilə nəticələnən hadisələrin təkrarlanmaması məqsədilə işəgötürənlərə metodik köməklik göstərilmişdir.

Tikinti sahəsində işə başlamadan əvvəl sanitar, yanğın, ekoloji təhlükəsizlik, həmçinin yaxınlıqdakı mühəndis və nəqliyyat kommunikasiyalarının və tikililərin təhlükəsizliyinin təmin edilməsi, təmir-tikinti aparılan yerdə xüsusi işarələrin qoyulması, yüksək təhlükə mənbəyi olan mexanizm və avadanlıqların istifadədən əvvəl sınaqdan və texniki təhlükəsizlik ekspertizasından keçirilməsi də diqqət mərkəzindədir. Bu gün tikinti aparılan obyektdə müvəqqəti qurğuların qurulması, yəni işçilərin soyunub-geyinməsi üçün çadır və köşklərin təşkil edilməsi, işçilərin nahar və istirahət etmələri üçün sanitar-gigiyenik qaydalara cavab verən xüsusi yerlərin hazırlanması, işçilərin sağlamlığının qorunması məqsədilə təcili tibbi yardım çantaları ilə təmin edilməsi muxtar respublikada əməyin mühafizəsi və işçilərin sağlamlığının qorunmasına xüsusi diqqət və nəzarət yetirilməsinin daha bir ifadəsidir.

Ümumiyyətlə, istehsal və tikinti sektorunda işçilərin əmək hüquqlarının qorunmasına və əməyin mühafizəsi qaydalarına əməl edilməsinə davamlı nəzarətin və maarifləndirici tədbirlərin həyata keçirilməsinin nəticəsidir ki, muxtar respublikada istehsal qəzalarının sayı ötən illərlə müqayisədə xeyli azalmış, əmək qabiliyyətinin itirilməsi ilə nəticələnən bədbəxt hadisələrin sayı minimuma enmiş, bir sıra peşə xəstəliklərinin qarşısı alınmışdır. Bu sahədə həyata keçirilən tədbirlər istehsal, emal və tikinti sahələrində əmək məhsuldarlığının artmasına və hər bir işçinin əməyin mühafizəsi mədəniyyətinin yüksəlməsinə səbəb olmuşdur.

*Muxtar respublikada insan amilinə yüksək diqqət və qayğını özündə ehtiva edən əməyin mühafizəsinin təşkilinə bundan sonra da xüsusi diqqət yetiriləcəkdir.*

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

***Daşınmaz əmlak hər bir insanın normal yaşaması üçün həyativacib tələbat sayılır. Daşınmaz əmlakı gözlənilməz bədbəxt hadisələrdən qoruyub saxlamaq sığortanın əsas vəzifəsi olmaqla vətəndaşların sosial müdafiəsinin ən mühüm istiqamətlərindən biridir.***

# Vətəndaşlara məxsus daşınmaz əmlakın icbari sığortası hamı üçün faydalıdır

Vətəndaşlara məxsus daşınmaz əmlak yaşayış üçün vacib olan tikililərdir. Bunlar icbari qaydada sığorta olunurlar. Sığorta isə insanların mənafelərinin zəmanət altına alınması üçün mövcud olan mühüm vasitə, hamı üçün faydalı olan bir yoldur. Sığorta dövlət və əhali arasında etibarlı əməkdaşlığın qurulması baxımından olduqca əhəmiyyətlidir.

Hazırda ölkəmizdə və muxtar respublikamızda vətəndaşlara məxsus yaşayış evləri, binalar, mənzillər, ümumən, daşınmaz əmlak, bir qayda olaraq, icbari sığorta olunur. Burada məqsəd sığorta hadisələri baş verdiyi zaman daşınmaz əmlakın məhv olması və yaxud hər hansı formada zərər görməsi ilə əlaqədar vətəndaşlara dəymiş zərərin əvəzinin ödənilməsidir. Bu sığorta növü icbari olmaqla əhalinin bütün təbəqələrinin sosial müdafiəsini təşkil etmək məqsədi daşıyır. Burada qaydalar və şərtlər yalnız qanunla müəyyən edilir. Bu barədə ölkəmizdə qəbul olunmuş "İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının Qanunu çoxlu sayda sığorta hadisəsi zamanı vətəndaşların daşınmaz əmlakına dəymiş zərərlərin əvəzinin ödənilməsi üçün hüquqi təminat verir. Belə sığorta hadisələri isə mövcud qanuna görə yanğın, ildırım düşməsi, məişətdə və istehsalatda istifadə olunan qazın partlayışı, elektrik naqillərində baş verən qısaqapanma, buxar qazanlarının, qaz anbarlarının, qaz kəmərlərinin, maşınların, aparatların və digər oxşar qurğuların və ya cihazların partlayışı, su, istilik, kanalizasiya kəmərlərinin və yanğınsöndürmə sistemlərinin qəzası, habelə qarşı tikililərdən, yaşayış və qeyri-yaşayış sahələrindən, yaşayış evlərindən və binalarından, mənzillərdən daxil olan su nəticəsində subasma, təbii fəlakətlər – zəlzələ, vulkan, fırtına, qasırğa, tufan, dolu, sel, daşqın, leysan, yer sürüşməsi, üçüncü şəxslərin hərəkətləri nəticəsində daşınmaz əmlakın zədələnməsi, məhv olması, yaxud hər hansı digər formada itkisi hesab olunur. Adları çəkilən sığorta hadisələri baş verdikdə vətəndaşlara məxsus yaşayış evlərinə, onların konstruktiv elementlərinə, otaqlarına, o cümlədən şüşələr də daxil olmaqla qapı və pəncərə konstruksiyalarına, su, kanalizasiya və qaz təchizatına, habelə istilik sisteminə aid borulara, rabitə, elektrik naqillərinə, bəzək elementlərinə, eləcə də bütün növ xarici və daxili mala və suvaq işlərinə, divar, tavan və döşəməyə dəyən zərərlər təminat altına alınmış olur.

Muxtar respublikamızda həyata keçirilən sığorta fəaliyyəti baş verən sığorta hadisələri zamanı vətəndaşların daşınmaz əmlakına dəymiş zərərlərin sığorta ödənişləri vasitəsilə aradan qaldırılması məqsədini güdür. Burada sosial müdafiə prinsipləri ön planda tutulmaqla Naxçıvan şəhərində yaşayan vətəndaşlar öz daşınmaz əmlaklarını 40 manat sığortahaqqı ödəməklə 20 min manata, muxtar respublikanın rayonlarında yaşayan vətəndaşlar isə 30 manat sığortahaqqı ödəməklə 15 min manat məbləğində sığortalaya bilərlər. Onu da qeyd etmək lazımdır ki, sığortahaqqının bu məbləği minimum məbləğ kimi müəyyən edilmişdir. Bu məbləğdən artıq qiymətləndirilə bilən daşınmaz əmlakı onun sahibi ilə razılaşdırılmış müqaviləyə əsasən, daha artıq məbləğə sığortalana bilər.

Göründüyü kimi, haliyədə qüvvədə olan qanun bir çox riskli hadisələr nəticəsində vətəndaşların daşınmaz əmlakına dəymiş zərərlərin icbari sığorta yolu ilə əvəzinin ödənilməsinə imkan verir. Ancaq bəzi hallar vardır ki, bunlar qanunda nəzərdə tutulmadığından müəyyən hadisələr nəticəsində daşınmaz əmlaka zərər dəysə də, sığorta ödənişi verilmir. Belə hallar sığorta müqaviləsi bağlanmamışdan əvvəl yaşayış evinə dəymiş zərərlər və qanunda nəzərdə tutulmuş sığorta hadisələrindən başqa, yəni sığortalının faydalanan şəxsin hadisənin baş verməsinə yönəldilmiş qəsdən etdiyi hərəkətlər, sığortalanmış əmlakın təmiri, qrunt sularının səviyyəsinin dəyişməsi, su borularında və ya rezervuarlarda aşınma, şaxtavurma, yeyilmə, tədricən xarabolma, köçürülmə və ya tutumunun artırılması nəticəsində axının baş verməsi kimi hallar hesab olunur və belə hadisələr nəticəsində daşınmaz əmlak sahibinə sığorta ödənişi verilmir.

Vətəndaşlara məxsus daşınmaz əmlakın icbari sığortası onların mənafelərinin təmini baxımından çox faydalıdır. Çünki daşınmaz əmlak sığorta hadisəsi zamanı zərər gördüyü zaman icbari sığorta müqaviləsi bağlamış və sığorta müqaviləsi qüvvədə olan vətəndaşlara sığorta təminatı verilir.

**Hafiz HÜSEYNOV**
***Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyinin baş mütəxəssisi***

# Magistratura təhsil pilləsinə qəbul imtahanının ikinci mərhələsi keçirilib

***Aprelin 26-da Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) Bakı, Naxçıvan və Gəncə şəhərlərində 2015-2016-cı tədris ili üçün Azərbaycan Respublikası ali təhsil müəssisələrinin magistratura təhsil pilləsinə qəbul imtahanının ikinci mərhələsini keçirib.***

Naxçıvan Dövlət Universitetində keçirilən imtahana TQDK-nın Naxçıvan Muxtar Respublikası Regional Bölməsinin nəzarətçi bazasından olan müəllimlər cəlb edilmişdilər. 205 bakalavriatın iştirak etdiyi imtahan saat $13^{00}$-da başladı.

İmtahan başlamazdan əvvəl bakalavriatlarla görüşüb həmsöhbət olduq. Ramazan Abdullayev Naxçıvan Dövlət Universitetinin "hüquqşünaslıq" ixtisası üzrə təhsil alıb. O dedi:

– Babək rayon Yarımca kənd tam orta məktəbini bitirmişəm. Ali məktəbə qəbul imtahanlarında 675 bal toplayaraq Prezident təqaüdünə layiq görülmüşəm. Arzularımdan biri də magistratura təhsili almaqdır. Birinci



ciddi hazırlaşdım. Bu dəfə özümə çox güvənirəm.

İmtahan başa çatdıqdan sonra TQDK-nın Naxçıvan Muxtar Respublikası Regional Bölməsinin rəhbəri Sabir Məmmədov bakalavriatların öz bilik və bacarıqlarını turda 80 bal topladım. İndi isə ikinci turda iştirak edəcəyəm.

Ordubad rayonunun Nürgüt kəndindən olan Nuranə Haqverdiyeva "Naxçıvan" Universitetinin "ingilis dili" ixtisasını bitirib. Onun dediklərindən:

– Mən ikinci dəfədir ki, ali təhsil müəssisələrinin magistratura təhsil pilləsinə qəbul imtahanında iştirak edirəm. Ötən il keçid balını toplaya bilməmişdim. Amma buna baxmayaraq, ruhdan düşmədim. Bu il daha

nümayiş etdirmək üçün ayrılan 1 saat 30 dəqiqə ərzində heç bir qayda pozuntusuna yol verilmədiyini qeyd etdi. Bildirdi ki, imtahanda bakalavriatlara seçdikləri proqram üzrə 5-i açıq olmaqla, 50 test tapşırığı təqdim olunmuşdu (bəzi proqramlar üzrə isə bakalavriatlar yazılı imtahan veriblər). Hər düzgün cavab bir balla qiymətləndirilir, səhv cavablar isə düzgün cavabların nəticəsinə təsir göstərmir.

İmtahandan yenicə çıxmış bakalavriat Araz Həsənzadəyə yaxınlaşırıq. Öyrənirik ki, Şərur rayonunun Alışar kəndindən olan Araz Həsənzadə Azərbaycan Texniki Universitetini bitirib. Birinci turda 48 bal toplayan Araz bildirdi ki, sualların cavablandırılmasında çətinlik çəkməyib və suallara doğru cavab verdiyinə əmindir. Elə həmin universitetin məzunlarından olan və Naxçıvan Muxtar Respublikasında təhsilini davam etdirmək istəyən Samirə Tarverdiyeva dedi ki, imtahanda sakitlik tam təmin edilmişdi. Suallar o qədər də çətin deyildi.

Məlumat üçün bildirək ki, qəbul imtahanının birinci mərhələsinin nəticələrinə görə, müsabiqə şərtlərini ödəyən bakalavriatların proqram seçimi 2015-ci il aprelin 1-dən 10-dək aparılıb və bu hüquqa malik olan bakalavriatlardan 10170 nəfəri qəbul proqramını seçərək təsdiqləyib. Bakalavriatların 4337 nəfərini oğlanlar, 5833 nəfərini isə qızlar təşkil edir. 5766 nəfər ali təhsil müəssisələrinin builki, 4404 nəfər əvvəlki illərin məzunudur. 30 bakalavriat xarici ölkə vətəndaşıdır. Bakalavriatlardan 9052 nəfəri Bakı şəhərindən, 205 nəfəri Naxçıvan şəhərindən, 913 nəfəri isə Gəncə şəhərindəndir.

Qəbul imtahanının ikinci mərhələsinin nəticələri elan olunduqdan sonra bakalavriatlar 2015-ci il mayın 7-dən 12-dək ali təhsil müəssisələrinin magistraturalarına qəbul aparılan ixtisaslaşmaların müsabiqəsində iştirak etmək üçün internet vasitəsi ilə ixtisaslaşma seçimini yerinə yetirəcəklər.

Qeyd edək ki, həmin gün Tələbə Qəbulu üzrə Dövlət Komissiyası Bakı, Naxçıvan, Gəncə, Sumqayıt, Şəki, Ağcabədi, Göyçay, Şirvan, Lənkəran və Xaçmaz şəhərlərində rus bölməsi abituriyentləri üçün "Azərbaycan dili" fənnindən imtahan keçirib. Naxçıvan şəhərindən 26 abituriyent imtahanda iştirak edib.

**Sara ƏZİMOVA**

Qələbə – 70

# Ömrün qəhrəmanlıq anları

## Taqım komandiri Qara Fərzəliyev düşmənlərə qarşı necə döyüşüb?

*Tarixin ən böyük savaşlarından biri kimi tarixə çevrilən II Cahan müharibəsində alman faşizminə qarşı mübarizədə xeyli sayda qəhrəman Azərbaycan övladları da iştirak ediblər. Bu ölüm-qalım mübarizəsində naxçıvanlılar da igidlik və şücaətləri ilə seçiliblər. Onlardan biri də Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurasının sədri Qara Abbas oğlu Fərzəliyevdir.*



Qara Fərzəliyev 1923-cü ilin oktyabr ayında Naxçıvan şəhərində anadan olub. Alman faşistlərinin SSRİ-yə hücumu başlayanda o da digər həmyaşıdları kimi müharibəyə yollanıb. Həmyerlimiz 402-ci Azərbaycan diviziyasının 678 saylı istehkamçı batalyonunda xidmətə başlayıb. İlk döyüşdəcə ağır yaralanıb. Qroznı və Bryansk şəhərlərində yerləşən hərbi xəstəxanalarda müalicə olunan Qara Fərzəliyev yenidən cəbhə xəttinə, odlu-alovlu döyüş meydanlarına yollanıb. Bu dəfə o, 77-ci Azərbaycan diviziyasının 105-ci atıcı polkunda Krasnodar və Rostov vilayətlərindəki şəhər və kəndlərin düşməndən azad edilməsi uğrunda rəşadətlilik nümunəsi göstərib. Cəsur həmyerlimiz bu döyüşlərdə cəsarət və igidliyi ilə fərqlənib. Məhz hərbi bacarığına görə onu 1943-cü ildə zabitlər hazırlayan xüsusi kursa göndəriblər. Altıaylıq kursda hərbi biliklərə yiyələnən və kursu əla qiymətlərlə bitirən Qara Fərzəliyevə kiçik leytenant rütbəsi verilib. Bundan sonra o, döyüş yolunu 417-ci diviziyanın 1372-ci alayında 5-ci bölüyün taqım komandiri kimi davam etdirib. Öz taqımı ilə birinci Pribaltika cəbhəsində Latviya və Litva respublikalarının şəhər və kəndlərinin alman faşistlərindən təmizlənməsində fəal iştirak edib. Bu döyüşlərdə göstərdiyi şücaətə görə o, "Qırmızı Bayraq" ordeni ilə təltif olunub.

Qara Fərzəliyev keçmiş SSRİ ərazilərinin bir çoxunun azad edilməsində iştirak edib. Belə ki, Krım torpağı uğrunda gedən döyüşlərdə əsl komandir kimi özünü göstərib, Sapunqaranın və Sevastopolun azad edilməsində cəsurluğu ilə fərqlənib. Sonra taqımı ilə birlikdə Belarusun Qomel şəhərinin və bir sıra yaşayış məntəqələrinin azad edilməsində iştirak edib. 1944-cü ilin iyununda Litvanın Skoudas şəhəri uğrunda gedən döyüşlərdə göstərdiyi igidlik isə həmyerlimizi daha da şöhrətləndirib. Belə ki, həmin döyüşdə onun taqımının irəliləməsinə imkan verməyən alman pulemyotçunu silahı ilə birlikdə əsir götürərək döyüşçülərin yolunu açıb. Bunun nəticəsində düşmənin xeyli canlı qüvvəsi və hərbi texnikası məhv edilib. Faşistlər bu itkinin əvəzini çıxmaq üçün dəfələrlə əks-hücuma keçsələr də, cəsur komandirin rəhbərlik etdiyi taqımın məğlubedilməzliyi qarşısında bütün səyləri puça çıxıb. Onlar hər hücumda daha çox itki verərək geri çəkilməyə məcbur olublar.

Sonralar 1372-ci atıcı alayın 3-cü batalyonunun 5-ci bölük komandiri olmuş V.Krivenko müharibənin odlu-alovlu döyüşlərini yada salaraq "Pravda Lubensine" qəzetində "Cəbhə dostluğu yaşayır" adlı məqaləsində Qara Fərzəliyevin bir qəhrəmanlığından bəhs edir. Məqalədə qeyd olunur ki, 1944-cü ilin avqust ayında Latviyanın Elqava şəhərini düşməndən azad edərkən Qara Fərzəliyevin komandirlik etdiyi taqımın döyüş xidmətləri çox olub. Sonra Tukums şəhəri uğrunda gedən döyüşlərdə azərbaycanlı komandir Qara Fərzəliyev döyüşün ağırlığını, məsuliyyətini qiymətləndirərək şəxsən özü pulemyotun arxasına keçib düşmənin əks-hücuma keçməsinə imkan vermədi. Nəticədə, faşistlər çox sayda canlı qüvvə itirərək 2 ədəd zirehli transportyoru döyüş meydanında qoyub geri çəkilməyə məcbur oldular. Bu döyüşdə Qara Fərzəliyevin özü və taqımının 8 nəfər əsgər ağır yaralansa da, axıradək döyüş meydanını tərk etmədilər.

Həmyerlimiz Qara Fərzəliyevin qəhrəmanlıqlarla dolu döyüş yolu alayın komandir heyəti tərəfindən də yüksək dəyərləndirilib, haqqında xoş sözlər söylənilib. Qara Abbas oğluna 1372-ci atıcı polkunun komandiri, polkovnik-leytenant Markov tərəfindən 10 may 1945-ci il tarixdə verilən xasiyyətnamədə qeyd edilir ki, atıcı taqımının komandiri Qara Fərzəliyev özünü savadlı, bacarıqlı, təşəbbüskar, hərbi texnikanı mükəmməl bilən komandir kimi göstərib, Baltikyanı respublikaların azad edilməsi uğrunda döyüşlərdə həlak olan bölük komandirini çox bacarıqla əvəz edib, iki dəfə yaralansa da, döyüş meydanını tərk etməyib, şəxsi heyət arasında yüksək nüfuz qazanıb. Buna görə Qara Fərzəliyevin fotoşəkli alayın şərəf lövhəsində vurulanaraq hərbi hissəyə yeni gələn gənc əsgərlərə onun kimi xidmət etmək tövsiyə edilib.

Cəsur komandir alman faşistlərinə qarşı döyüşlərdə göstərdiyi çoxsaylı şücaət və igidliklərə, yüksək vətənpərvərliyə görə, o dövrün ən yüksək ordenlərindən sayılan "Qırmızı Bayraq", iki dəfə isə birinci dərəcəli "Vətən müharibəsi" ordeni və 15 medalla təltif edilib, dəfələrlə Ali Baş Komandanın təşəkkürünü alıb.

Qara Fərzəliyev döyüşlərdə dəfələrlə yaralanmasına, hətta bir böyrəyini itirməsinə baxmayaraq, bacarıqlı, savadlı, təcrübəli hərbçi kimi müharibə başa çatdıqdan sonra da orduda saxlanılıb, xidmətini məxfi, mürəkkəb sahələrdə davam etdirib. Nəhayət, 1957-ci ilin sentyabrında öz ərizəsi əsasında hərbi xidmətdən ehtiyata buraxılaraq doğulub böyüdüyü Naxçıvan şəhərinə qayıdıb.

Vətənə qayıtdıqdan sonra müxtəlif vəzifələrdə də vicdanla çalışıb, 1961-ci ilədək Naxçıvan Şəhər Mülki Müdafiə İdarəsinin rəisi, həmin ildən 1995-ci ilin mart ayına kimi isə Naxçıvan Mülki Müdafiə Qərargahının məxfi işlər üzrə rəisi vəzifələrində işləyib. 1995-ci ildən isə Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurasının sədri vəzifəsində çalışır.

Qara Fərzəliyev istər hərbi, istərsə də mülki həyatda ona tapşırılan vəzifələrin öhdəsindən layiqincə gəlib. Buna görə də harada işləyibsə, kollektivin dərin hörmətini qazanıb. 92 yaşlı qocaman veteranın ən böyük arzusu işğal altında olan torpaqlarımızın tezliklə azad olunmasıdır. Ordumuzun güclü, Azərbaycan gənclərinin isə vətənpərvər gənclər olduğunu söyləyən veteran döyüşçü tezliklə milli qələbəmizi də qazanacağımızı söyləyir. Biz də Qara müəllimin bu arzusuna qoşulur və tezliklə bu qələbənin sevincini birgə qeyd etməyimizi diləyirik.

✍ **Səbuhi HƏSƏNOV**

*Mayın 1-dən 11-dək Naxçıvanda ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş ənənəvi "Naxçıvan Open-2015" Beynəlxalq Şahmat Festivalı keçiriləcək.*

## Naxçıvanda beynəlxalq şahmat festivalı keçiriləcək

Şahmat festivalı çərçivəsində zəka sahibləri 3 turnirin iştirakçısı olacaqlar. Belə ki, reqlamentə əsasən, beynəlxalq festivalda güclülərin ("A" turniri), əmsalı 2250-dən az olanların ("B" turniri) və uşaqların ("C" turniri) yarışı keçiriləcək. Artıq "Naxçıvan Open-2015" festivalının "A" turnirində iştirak etmək üçün 61 şahmatçı, o cümlədən 32 qrossmeyster müraciət edib. İsveçrə sistemi üzrə 9 turdan ibarət olacaq yarışda hər iştirakçıya 40 gediş üçün 90 dəqiqə, partiya başa çatana qədər hər şahmatçıya 30 dəqiqə və hər gediş üçün əlavə 30 saniyə vaxt ayrılacaq.

Keçiriləcək şahmat festivalında iştirak edəcək şahmatçıların reytinq siyahısına Etyen Bakro (2712 - Fransa) başçılıq edir. İştirakçılar arasında Sergey Jiqalko (Belarus), Yuri Kuzubov, Vladimir Baklan (Ukrayna), Pavel Smirnov, Yevgeni Romanov (Rusiya), Azərbaycan şahmatçılarından Rauf Məmmədov, Eltac Səfərli, Qədir Hüseynov kimi güclü zəka sahibləri var. Ən maraqlı məqam isə "Naxçıvan Open-2015" Beynəlxalq Şahmat Festivalında keçmiş dünya çempionu, Özbəkistanın məşhur şahmatçısı Rustam Kasımcanovun da (beynəlxalq əmsalı - 2712) iştirak etməsidir. "A" turnirində mübarizə aparacaq Rustam Kasımcanovla yanaşı, qadınlar arasında dünya çempionu, Çin təmsilçisi Hou Yifan da daxil olmaqla, 15-dək ölkədən bir sıra tanınmış şahmatçılar iştirak edəcəklər.

Qeyd edək ki, turnirin mükafat fondu 40 min ABŞ dolları həcmindədir. Ötən il "A" qrupunun qalibi Rusiya qrossmeysteri Boris Savçenko olub. O, 9 mümkün xaldan 6,5 xal toplayıb.

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş idman yarışları bununla bitməyəcək. Belə ki, may ayının 1-dən başlayaraq muxtar respublikada fəaliyyət göstərən idman federasiyaları Gənclər və İdman Nazirliyi ilə birgə 15-ə yaxın birinciliklər təşkil edəcəklər. İlk belə turnir Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində boks üzrə muxtar respublika turniri olacaq. 2 gün (1-2 may) davam edəcək turnirdə 150-dən çox dəri əlcək sahibinin iştirak edəcəyi gözlənilir. İlham Əliyev adına Olimpiya-İdman Kompleksində həmçinin azarkeşlər güləş, stolüstü tennis, karate-do, voleybol, basketbol və kikboksinq idman növləri üzrə də keçiriləcək Naxçıvan Muxtar Respublika çempionatlarına şahidlik edəcəklər.

May ayının 8-də isə Şərur Rayon Olimpiya-İdman Kompleksi Azərbaycanın ən güclü kikboksinqçilərini qəbul edəcək. Həmin gün bu kompleksdə kikboksinq üzrə Azərbaycan çempionatına start veriləcək. Bununla yanaşı, Gənclər və İdman Nazirliyi ilə Yüngül Atletika, Atıcılıq və Hava və Ekstremal İdman Növləri federasiyaları birgə kross qaçışı, peyntbol və velosiped yürüşü üzrə muxtar respublika birincilikləri keçirəcəklər.

✍ **Ceyhun MƏMMƏDOV**

## Naxçıvan gömrükçüləri finaldadır

*Azərbaycan Respublikası gömrük orqanları arasında təşkil olunan futzal üzrə növbəti birincilikdə birinci və ikinci turun oyunları arxada qalıb.*

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin yaradılmasının 23-cü ildönümünə həsr olunan yarışda Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin komandası "B" qrupunda mübarizə aparıb. Qeyd edək ki, 16 komandanın mübarizə apardığı ənənəvi yarışda bu dəfə "A" qrupunun oyunları Sumqayıtda, "B" qrupunun oyunları isə bu günlərdə Bakıda baş tutub.

Qrup oyunlarında Bakı Baş Gömrük İdarəsinin komandası ilə ("BBGİ") qolsuz bərabərə qalan və digər rəqiblərinə böyük üstünlüklə qalib gələn muxtar respublika gömrükçüləri yarışın dördddəbir final mərhələsində "Sumqayıt"ı (Sumqayıt Baş Gömrük İdarəsi) mübarizədən kənarlaşdırıb – 6:0.

Qrup oyununda "sülh"lə razılaşan "Naxçıvan" və "BBGİ" komandaları finalın bir addımlığında yenidən üz-üzə gəliblər. Gərgin keçən qarşılaşmada hesabı Naxçıvan gömrükçüləri açıblar. Bakılıların cavabı özünü çox gözlətməyib və 12-ci dəqiqədə hesaba tarazlıq gəlib. 17-ci dəqiqədə Aynar İsmayılov komandamızı önə keçirib, üç dəqiqə sonra Orxan Məmmədovun dublu rəsmiləşib. İlk hissənin tamamında komanda hesabındakı 6-cı cərimə xalı qapımıza 10 metrlik sərbəst zərbə ilə nəticələnsə də, rəqib hesab arasındakı fərqi azalda bilməyib.

İkinci hissə də gərgin keçib. İlqar İsmayılovun vurduğu qol komandamızı rahatlatsa da, "BBGİ" asanlıqla təslim olmayıb. Sona bir dəqiqə qalmış hesab arasındakı fərq minimuma enib. Rəqib bu dəfə 10 metrlik sərbəst zərbəni qola çevirsə də, bundan artığına gücü çatmayıb – 4:3

Final qarşılaşması Bakı şəhərindəki ABU ARENA-da keçiriləcək. Həlledici oyunda Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi ilə Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin komandaları üz-üzə gələcəklər.

***Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin mətbuat xidməti***

## İşaxtaran vətəndaşların nəzərinə!

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti Naxçıvan Regional Peşə Tədris Mərkəzində "bərbər" peşəsi üzrə kurs təşkil edir. Tədrisin müddəti 2 aydır. Muxtar respublikanın rayonları üzrə tələbat aşağıdakı kimidir:

| | Kəndin adı | Vakant yer |
|---|---|---|
| **Şərur rayonu üzrə** | | |
| 1. | Qorçulu | 1 |
| 2. | Qarxun | 1 |
| 3. | Muğancıq-Mehrab | 1 |
| 4. | Danyeri | 1 |
| 5. | Gümüşlü | 1 |
| 6. | Kürkənd | 1 |
| **Cəmi:** | | **6** |
| **Babək rayonu üzrə** | | |
| 1. | Aşağı Uzunoba | 1 |
| **Cəmi:** | | **1** |
| **Ordubad rayonu üzrə** | | |
| 1. | Biləv | 1 |
| 2. | Parağa | 1 |
| 3. | Aşağı Əylis | 1 |
| 4. | Yuxarı Əylis | 1 |
| 5. | Bist | 1 |
| 6. | Gənzə | 1 |
| 7. | Sabirkənd | 1 |
| 8. | Çənnəb | 1 |
| 9. | Xurs | 1 |
| 10. | Nürgüt | 1 |
| 11. | Nüsnüs | 1 |
| **Cəmi:** | | **11** |
| **Culfa rayonu üzrə** | | |
| 1. | Milax | 1 |
| 2. | Teyvaz | 1 |
| **Cəmi:** | | **2** |
| **Şahbuz rayonu üzrə** | | |
| 1. | Yuxarı Qışlaq | 1 |
| 2. | Aşağı Qışlaq | 1 |
| 3. | Sələsüz | 1 |
| 4. | Kükü | 1 |
| 5. | Gömür | 1 |
| 6. | Ayrınc | 1 |
| 7. | Nursu | 1 |
| 8. | Qızıl Qışlaq | 1 |
| 9. | Keçili | 1 |
| **Cəmi:** | | **9** |
| **Kəngərli rayonu üzrə** | | |
| 1. | Təzəkənd | 1 |
| **Cəmi:** | | **1** |

Əqli və fiziki potensialları "bərbər" peşəsi üzrə çalışmağa uyğun olan sağlamlıq imkanları məhdud şəxslər də müraciət edə bilərlər. Peşə hazırlığı kursunda iştirak etmək istəyənlər 2015-ci il aprel ayının 30-dək tələb olunan aşağıdakı sənədləri yaşadıqları ərazi üzrə məşğulluq mərkəzlərinə təqdim edə bilərlər:

1. *Yaşayış yerindən arayış*
2. *Şəxsiyyət vəsiqəsinin surəti*
3. *Tibbi yoxlama haqqında arayış.*

***Əlaqə telefonu: 545-32-33***


ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 339